# MAYORUN İŞ GÜNLƏRİ



Əlisəfa Azayev

(əvvəli ötən saylarımızda)

### YADPLANETLİ

(XII fəsil)

Son vaxtlar "uçan boşqab", "yadplanetli" ifadələrini mayor da çox eşidirdi. Qəsəbədə söz-söhbətlərini bilməyənlər, sanki belə hərəkətləri ilə camaat arasında əsil xof, vahimə yaradırlar. Belə söhbətlər sahə müvəkkilinə xoş gəlməsə də, inandığı vaxtlar da olurdu.

-Cənab mayor, o gecə gördünüz də... Parlaq işığlı obyekt necə dənizə tərəf getdi?

-Hə... Gördüm...

-Biri də qəsəbənin üstündən keçdi...

Qəsəbədə öz oyunbazlığı, qəribə söz-söhbətləri ilə seçilən Famil dedi:

-O gün biri lap dənizə düşdü. Deyəsən, onların orada bazaları var.

Mayor onlarla razılaşmasa da, hərdən sözlərini təsdiq edir, "bəli, bəli" deyirdi. Bu adamalrı da bri o qədər qınamırdı. Son vaxtlar radio, televiziya, qəzet və jurnallar elə bu barədə bəhs edirdilər. Müzakirə hələ də getməkdə idi:

-Özü də çox iri yox ey, lap balaca olular.

-Balaca deyəndə... Şəkildə görmüşəm də.

-Başları da yumru... lap roborta oxşayırlar.

-Deyirlər ki, bir beləsi də bizim meşəyə düşüb.

-Yalandı...

-Görən olub axı...

-Kim görüb?!

-Nə bilim vallah, deyirlər də...

Famil onlardan ayrılandan sonra meşəyə tərəf üz tutdu. Onun burada əsil mənada dəfinəsi vardı. Xaşxaş kolları xeyli boy atmışdı. Düzdü, onların becərilməsində elə bir xidmətləri olmamışdı. Ancaq itirmək də istəmirdi. Özünün dediyi kimi əsil "cəhənnəm çiçəkləri" idi. İstəyənlər vardı.

Payızın girməsi, qəsəbə uşaqlarının böyürtkan yığmaq üçün meşəyə tərəf üz tutması onu heç açmırdı. Bu gün də hava çox isti, bürkülü idi. O, dəniz sahilində xeyli gəzdikdən sonra meşəyə tərəf getdi. Buradakı möhür yeri onun diqqətini yenə də cəlb elədi. Bir dəfə tanışlardan brii demişdi ki, bu bataqlıqdan dərman kimi istifadə etmək olar. Onun deməsinə görə əsas camaatı cəlb etmək idi. Sonra pul başına xəzəl tək töküləcəkdi.

Famil öz-özünə pıçıldadı: "Pis təklif deyil... Qoy əvvəl bir özüm yoxlayım..." Əvvəl ayaqqabıalrını çıxarıb, şalvarının ətəyini bükdələyib, dizəcən onun içinə girdi. Zehmədən xeyli qılçalarına, qollarına sürtdü, yaydı... isto havada ləzzət eləyirdi. Nə fikirləşdisə bir azdan yaxınlıqdakı suda yuyunaraq bütünlüklə soyundu... özünü bataqlığın gur yerinə vuraraq pıçıldayırdı:

-Oxay... Oxay... Mən indiyə kimi bunu niyə bilməmişəm... Əsil möcüzə, dərmandı... Bu gündən bu yer mənə məxsusdur. İcradan qərarını da alacağam. Başçının sürücüsü ilə yaxınam...

Famil çürüntü qoxusu verən bataqlığın içində çırpına-çırpına daha çox əldə edəcəyi gəlir barədə düşünürdü: "Adamın birini bir manata buraxsam da bəsimdir. Əlbəttə, gələnlərdən üç-büş manata da almaq olar... Veteranlara, xəstələrə lap güzəşt də edərəm. Uzaqbaşı hərəsi əlli qəpikdən. Lap on, iyirmi qəpik versələr də şükür. Sözsüz ki, üç, beş qəpik verənlər də olacaq..."

Beləcə o şirin xəyallar içində özünü tamam unutmuş, üz-gözlərini də qara lehmə ilə görünməz etmişdi ki, ağcaqanadlar onu bir o qədər narahat etməsinlər.

Bu ara qəsəbədən bir dəstə qız-gəlin böyürtkan yığmaq üçün meşəyə yola düşmüşdü. Bura əslində meşənin elə dənizə yaxın, kolluq ərazisi idi. Nəyi olmasaydı, həmişə böyürtkandan bol yeri idi. Birdən onlardan biri pıçıldadı:

-Ay bacı...

-Hə, nolub ki?

**Povestdən bir parça**

-Bismillah, o nədi ki?

-Nohurdamı? Yəqin camışdı da, ağnayıb...

-Yox ey, camışa oxşamır...

-Bəs nədi?

-Nə bilim, vallah... Çox qəribə, vahiməli məxluqa oxşayır...

Beləcə, onlar vahimə içində qəsəbəyə tərəf qaçdılar. Hava küləkli olduğu, dəniz gurladığı, küləyin də qızlara, qadınlara tərəf əsməsi səbəbindən amil bu səs-küydən xəbərsiz oldu. Bir də gördü ki, bütün qəsəbə ona tərəf can atmaqdadı. Özü də bir hay-küy, söz-söhbətlə, qəzəblə ki:

-Bu elə yad planetli olacaq...

-İndi necə edəyin?

-Diri tutağın...

-Bizi vurub öldürməz ki?...

Mayorun səsi eşidildi:

-Qorxmayın, silah yanımdadı...

Familin qorxudan sanki dili batmışdı. Heç dillənə bilmədi. Əlacsız halda qaçıb yaxınlıqdakı ildırım vurmuş palıd ağacının koğuşuna gücla girə bildi.

Səslər eşidildi:

-Gördüz də necə qaçırdı...

-Yad planetli idi...

-Palıdın içində gizləndi...

Mayor cammatı sakitləşdirərək dedi:

-Bir sakit olun da... Biz özbaşına deyilik ki... Bu, çox mühüm, dövlət əhəmiyyətli məsələdi. Bu barədə hökmən yuxarıdakıları məlumatlandırmalıyıq.

Səslər eşidildi:

-Kimi?...

-Rəisi?

-Başçını?...

-Prezident?...

Mayor onlara acıqlandı:

-Sakit! Bir imkan verin də. Kimdə əl telefonu var?

-Məndə... Konturum lap azdı.

-Sənin də ömrü boyu konturun olmadı da.

-Bəlkə də danışığa bəs edər. Çox danışma da. Eləcə məlumat ver.

-Mənə ağıl öyrətmə.

Mayor "102" yığsa da danışa bilmədi. Kimsə dilləndi:

-Əvvəl rayonun kodunu yığ, sonra da.

-Hə, doğurdan ey... O qədər həyəcanlıyam ki...

-Orqan işçisi səbirli, təmkinli olmalıdı.

-Qoyursuz ki.

Telefonda növbətçi zabitin səsi eşidildi:

-Polis növbətçisi baş leytenantı Məmmədov eşidir.

Mayor o an bildirdi:

-Məmmədov, tez rəisi məlumatlandır. Meşədə yad planetli aşkar edilib. Bu dəqiqə camaatla onu mühasirəyə almışıq. əməliyyat qruopu özünü tez çatdırsın.

Əlaqə kəsildi. Bilmədi ki, bu telefonda konturun qurtarması səbəbindən oldu. Yoxsa növbətçi onunla zarafat etdiyini düşünüb dəstəyi yerə qoydu. Mayor gileyləndi:

-Məsuliyyətsiz... Bu cürə dövlət əhəmiyyətli bir xəbəri bunun qarşılamağına bax.

Sonra isə qəsəbə sakinlərinə müraciət edərək dedi:

-Siz sakit olun. Biz yuxarıda oturanlardan nə vaxt yarımışıq ki, indi yarıyaq?

Səslər eşidildi:

-Hə də...

-Oğurluq baş alıb gedir, baxan yox...

-Kənd susuz qalıb...

-Telefonlar işləmir...

Mayor onlara acıqlandı:

-Sakit... Dərdimiz indiyə qalmayıb. Nolar ki, yad planetli olanda. Bəlkə yaralıdı, onun bir köməyə ehtiyacı var?!

-Hə də...

-Dilini bilirik ki, danışdıraq, sorğu-sual edək?

Səslər eşidildi:

-Xaricdə olan yoxdur?

-Əcnəbi dili...

-Yankilər...

Mayor bu an daha dözə bilməyib, rusca bir ana söyüşü söyərək:

-Bəsdir, xvatit də... -deyə silahını əlində oynatdı. -Kimdən qorxacağam?... Üstümə gələr, lap anasını ağladaram... Ancaq vurmaq heç də yaxşı deyil... Biz onu diri tyutmalıyıq... Bilirsiniz də, ondan sonra bütün dünya mətbuatı, informasiya vasitələri bizdən öhbət açacağlar.

Qarışıq səslər eşidildi:

-Radio...

-Televiziya...

-Qəzet və jurnallar...

Mayor hirsli, əsəbi idi. Arada bir siqaret adlayası oldu. Papirosunu yandıra-yandıra ətrafındakılara tapşırdı:

-Siz gözdə-qulağda olun ha, bu şüdə oğlu şüdə birdən qaçar.

Kimsə qımışdı:

-Bəlkə qızdı? Mayor onun erkək-dişiliyini haradan bildi?

Mayor özünü sındırmaq istəmədi:

-Ə, nə çərənləyirsən. Bəlkə heç onlarda cins bölgüsü yoxdur?

-Ola bilər... Mübahisə etmirəm.

Molla Qəni sözündən qalmadı:

-Ola bilər... Ancaq bir məssəbi olar da...

Onun bu sözlərinə mayor qeyzləndi:

-Soruş da... De ki, şiəsən, yoxsa sünni?

-Qəlbə dəymək yaxşı deyil.

-Qəlbə dəyən kimdi? Biz, yoxsa siz? Heç nədən bu kimi hərəkətlərimizlə milləti parçalayıb bölmüsüz iki yerə.

-Tək olan bir Allahdır... Həyatın əbədi, əzəli qanunları var... Müsbət, mənfi... Yaxşı, pis... Şirin, acı...

-Sizdən olanlar həmişə müsbət, yaxşı, şirin olur da. Mən belə fəlsəfəyə inanmıram.

-Allah asi olma, oğul.

-Onda soruş da, bəlkə bu yadplanetli də sizlərdəndi?

Molla pərt halda kənara çəkiləndən sonra mayor kənddə öz dilavərliyi ilə seçilən Mayılı yanına çağırdı:

-Ey cigid, sən matros kimi çox xarici ölkədə olmusan axı... Bir-iki kəlmə de, bəlkə onu qandıra bildin, səni başa düşdü.

-Nə deyim axı?

-De ki, salam, xoş gəlmisən...

Oğlan səsləndi:

-Privet...

-Danışdı da...

-Zdrastuvuyte...

-Sonra...

-Dobro pojalovat...

-Ə, əcnəbi dilində danış.

-Elə rus dili də əcnəbi dilidi də.

-İngiliscə soruş.

-Dillənmir... Bəlkə fransızca dindirim?

-Hə... Soruş ki, kimsən, nəçisən, haradan gəlmisən?

-Mızıldanır... Ola bilsin ki, almanca yaxşı başa düşür...

-Çərənləmə... Daha qurtar...

Beləcə söhbət xeyli uzandı. Hətta mayor əlacsız qalıb havaya ateş açdı. Dəmələrinə görə yad planetli meşəyə tərəf qaçmaq istəyirdi. Səsləndi:

-Ona de ki, məni hirsləndirib haldan çıxartmasın. Oddayaram onu. Sakitcə yerində əyləşsin.

-Dilləndi...

-Nə deyir ki?...

-Bir sakit olun da...

Artıq hava qaralmış, camaat əllərində şam yandırmış halda toplaşmışdı. Biri eləməyib tənbəllik əlindəki yanar şamı var qüvvəsilə palıd ağacına tərəf atdı. Çığırtı səsi eşidildi. Bir azdan ağac tüstülənməyə başladı.

Həyəcanlı səslər eşidildi:

-O adamdı...

-"Mama" dedi...

-Ağladı da...

Mayor bir daha havaya yaylım atəşi açaraq camaata acıqlandı:

-Sakit olun da, yaramazlar... O yanar şamı atan kim idi? İndi mən sənə göstərərəm!... Burada taleyimiz həll olunur, bunun hərəkətlərinə bir bax!...

Mayor daha dözə bilməyib,yad planetlini xəbərdar edəsi oldu. Hələ də şöbədən xəbər yox idi. Növbətçi də susmuş, telefona cavab vermirdi. Artıq gecədən xeyli keçmişdi, vəziyyət beləcə davam edə bilməzdi. Səsləndi:

-Ey yadplanetlisən, nəsən bilmirəm!... Məni cana doydurma, oradan çıx!... Bu dəqiqə başını odlayacağam!...

Arada kənddən onun üçün yemək-içmək də gətirmişdilər. Ac-susuz qalmayacaqdı ki... Yeyə-yeyə dedi:

-Dəli şeytan deyir ki, bunu gülləyə tut...

Tüfəngli adamların səsləri eşidildi:

-Siz icazə verin, biz odlayaq da...

-Az bilmirsiniz... Nolar ki, yadplanetli olanda. Onun Allahı yoxdur?

Bu an polis rəisi dəstəsi ilə gəldi. Famil çılpaq halda oradan çıxanda hamı bir-birinə dəydi. Rəis kükrədi:

-Elə belə işlər səndən çıxar. Oyunbaz... Əllərin ilə nə tutmusan şələ-şüləni?...

Deməsinə görə Famil palıd ağacının içinə girəndən sonra onu gün vurduğu üçün həyəcandan ürəyi sıxılıb, yatıb yuxuya gedib, özündən xəbəri olmayıb. Rəis mayora tərəf baxaraq başını buladı:

-Xəcalət çəkmirsən də... Bu da sənin sayıqlığın... Yadplanetlin...

*Povesti tam şəkildə adalet.az saytında oxuya bilərsiniz*